İPƏK YOLU, No.2, 2022, səh.71-78

# ÇİNDƏ MƏŞĞULLUQ SİYASƏTİNİN İCRA MEXANİZMLƏRİ

**Xaliq Rüstəmov**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: xrabbasali@gmail.com

**Xülasə.** Məqalədə Çin Xalq Respublikasında əhalinin məşğulluq vəziyyəti tədqiq edilir. Son illərdə ölkədə məşğulluğun artırılması üçün həyata keçirilən çoxsaylı strategiyaların müsbət nəticələri və statistik göstəricilər təhlil edilir.

**Açar sözlər:** Çin iqtisadiyyatı, işsizlik, məşğulluq siyasəti, iqtisadi inkişaf, məşğulluq proqramı, əmək bazarı.

**MECHANISMS OF IMPLEMENTATION OF EMPLOYMENT POLICY IN CHINA**

**Xalig Rustamov**
*Baku State University, Baku, Azerbaijan*

**Summary.** The article examines the employment situation in the People's Republic of China. The positive results and statistics of numerous strategies implemented to increase employment in the country in recent years are analyzed.
**Keywords:** Chinese economy, unemployment, employment policy, economic development, employment program, labor market.

**МЕХАНИЗМЫ РЕАЛИЗАЦИИ ПОЛИТИКИ ЗАНЯТОСТИ В КИТАЕ**

**Халиг Рустамов**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме.** В статье исследуется ситуация с занятостью в Китайской Народной Республике. Анализируются положительные результаты и статистика многочисленных стратегий, реализованных для увеличения занятости в стране за последние годы.
**Ключевые слова:** Китайская экономика, безработица, политика занятости, экономическое развитие, программа занятости, рынок труда.

## 1. Giriş

Məşğulluq problemi müxtəlif dövrlər üzrə həm müşahidə edilən işsizlik göstəricilərindəki artım dinamikası, həm də işsizlik problemlərinin müxtəlif regionlarda qeyri-bərabər təsiri baxımından son illərdə Çində ciddi sosial-iqtisadi problemə çevrilmişdir. 1990-cı illərin ortalarından başlayaraq Çinin şəhər əmək bazarı əhəmiyyətli transformasiyalar və struktur dəyişiklikləri yaşamışdır. Məhsul bazarı islahatları və özəl sektorda inkişaf ilə yanaşı, dövlət firmaları 1990-cı illərdə əhəmiyyətli maliyyə çətinlikləri yaşamağa başlamışdılar. 1995-ci ildən başlayaraq hökumət iri müəssisələrə nəzarəti saxlamaqla yanaşı, kiçik və orta dövlət müəssisələrini özəlləşdirmək siyasətinə başladı. Bu, dövlət müəssisələrində geniş miqyaslı ixtisarlara səbəb oldu və həqiqətən də 1995-ci il dövlət məşğulluğunda mütləq artım müşahidə olunmayan ilk il oldu. 1995-2001-ci illər ərzində dövlət sektorunda 34 milyon işçi ixtisar edildi. [5].

1990-cı illərin ortalarından etibarən dövlət müəssisələrində aparılan ümummilli islahatlar nəticəsində işdən çıxarılan işçilərin yenidən işlə təmin edilməsi problemini həll etmək üçün Çin ilk dəfə 2002-ci ildə aktiv milli məşğulluq siyasətini tətbiq etmişdir. Hökumət həmçinin işçilərin məşğulluq hüquqlarını qorumaq üçün Çin Xalq Respublikasının

Konstitusiyasını, Çin Xalq Respublikasının Əmək Qanununu və digər müvafiq qanun və qaydaları qəbul etmişdir. Bu hüquqi çərçivəyə əsasən, Çindəki daxili milli vəziyyətə uyğun olaraq və beynəlxalq təcrübələrə əsaslanaraq, Çin hökuməti "işçilərin öz işini tapması, bazarın tənzimlənməsi və hökumət tərəfindən təşviq edilən məşğulluq yolu ilə məşğulluq" kimi məşğulluq prinsipini formalaşdırıb. Çin hökuməti həmişə məşğulluğun təşviqinə sosial-iqtisadi inkişaf üçün strateji vəzifə kimi baxmış, işsizlik səviyyəsinə nəzarəti və iş imkanlarının artırılmasını əsas makro nəzarət hədəflərindən biri kimi qəbul etmiş və bunu iqtisadi və sosial inkişaf planına daxil etmişdir. O, daxili tələbin genişləndirilməsi prinsipinə əməl edilərək sabit fiskal və pul-kredit siyasətini həyata keçirmiş, milli iqtisadiyyatın sabit və kifayət qədər sürətli inkişafını təmin etmiş, iqtisadi strukturu fəal şəkildə korreksiya etməklə məşğulluğun idarə edilməsində iqtisadi artımın təsirini gücləndirmişdir. [2].

Çin hökuməti israrla sənayenin inkişafını məşğulluğun genişləndirilməsi üçün əsas istiqamət hesab edir, daha çox iş imkanları yaratmaq məqsədi ilə xidmətlərin, iaşə, ticarət və ticarət dövriyyəsinin, turizmin və s. inkişafını təşviq edirdi. Çin hökuməti əmək resurslarındakı üstünlüklərdən istifadə etməyə böyük diqqət yetirir, müqayisəli üstünlüklərə malik olan və məhsulları bazar tələblərinə cavab verən əmək tutumlu sənaye müəssisələri, xüsusən də özəl biznes və kiçik və orta sahibkarlıq müəssisələrini fəal şəkildə inkişaf etdirirdi. Mərkəzi və yerli hökumətlər şəhər və kəndlərin əməkqabiliyyətli əhalisini işlə təmin etmək, lazımi təlim keçmək üçün dəstəkləmək və onlara kömək etmək üçün xüsusi fondlar yaratmışdı. Əlverişli vergi siyasətindən istifadə edərək, bütün səviyyələrdə hökumətlər işsizlərin özünüməşğulluğunu həyata keçirməyə və ya öz bizneslərini qurmağa kömək edir, eyni zamanda, kiçik və orta sahibkarları işsizləri işə qəbul etməyə təşviq edirdi. Hökumətlər işsizlərə öz bizneslərini qurmağa dəstək olmaq üçün kiçik kreditlər və faiz subsidiyaları verirdilər. [1, s.440].

## 2. Çində Aktiv məşğulluq siyasətinin (AMS) tətbiqi

Çin ilk dəfə 2002-ci ildə aktiv milli məşğulluq siyasətini tətbiq etmişdir. Bu aktiv məşğulluq siyasəti əmək tutumlu istehsal və xidmət sahələrini inkişaf etdirmək üçün sektoral strategiyalar, sahibkarlığı inkişaf etdirmək və işçilərin işə cəlbini təşviq etmək üçün fiskal və maliyyə siyasəti, həssas qruplara kömək etmək üçün aktiv əmək bazarı siyasətlərinin tətbiqi və məşğulluq subsidiyalarının verilməsini əhatə edirdi. Tətbiqinə 2002-ci ildə başlanan aktiv məşğulluq siyasəti dörd əsas istiqamətdə hədəfləri müəyyən edirdi:

- Yeni iş yerlərinin yaradılması
- İşsizlərin yenidən məşğulluğu
- Sosial həssas qrupun yenidən məşğulluğu
- İşsizlik səviyyəsinin azaldılması

Həyata keçirilən strategiyalarda iqtisadi artım və məşğulluğun artımı arasındakı dinamikanın təhlili aparılmalı, makroiqtisadi, sektoral, beynəlxalq ticarət, investisiya, kənd yerlərinin inkişafı siyasətləri məşğulluq hədəflərini lazımi qaydada nəzərə almalı, əmək tutumlu

və ənənəvi xidmət sektorlarını təşviq etmək üçün güzəştli vergi və fiskal siyasətlər aparılmalı idi. Sahibkarlığın inkişafı və özünüməşğulluğu təşviqi məqsədilə öz biznesini idarə edən işaxtaran şəxsə dövlət tərəfindən illik 8000 Çin Yuanı (RMB) məbləğində vergi endirimi, üç il müddətinə inzibati rüsumlardan azadolma və iki ildən dörd ilədək müddətə 20,000-100,000 RMB məbləğində mikro kredit verilirdi. Proqramlar çərçivəsində işə qəbulun təşviqi məqsədilə işsiz şəxsi işə götürən sahibkara işə qəbul edilən şəxsə görə illik 4800 RMB vergi endirimi, həmçinin sosial sığorta subsidiyaları verilirdi. [4].

İşsizliyin proqnozlaşdırılması və qabaqcadan xəbərdarlıq sisteminin yaradılması, məşğulluğu dəstəkləyən sosial təminat proqramlarından istifadə edilməsi, , xüsusi məşğulluq fondları və məsuliyyət sistemi kimi icra mexanizmlərinin yaradılması da məşğulluq siyasətinin tətbiqi ilə əlaqədar idi. Məşğulluq siyasətinin bütövlükdə işsizlik səviyyəsinin azaldılmasına verdiyi töhfəni qiymətləndirmək çətin olsa da, statistikalar göstərdi ki, 2003-cü ildən 2007-ci ilə qədər 25 milyona yaxın işdən çıxarılan işçi onun müxtəlif tədbirləri ilə yenidən məşğulluğa cəlb olunub [7].

Çində tətbiq edilən məşğulluq siyasəti proqramları dəfələrcə yenilənmiş və təkmilləşdirilmişdir. 2008-ci ildə ölkədə işsizlik problemini həll etmək üçün tətbiq olunan proqramlar təkmilləşdirildi, hədəf qrup elə həmin il qüvvəyə minmiş "Məşğulluğun Təşviqi" haqqında qanunun tələbinə uyğunlaşmaq üçün dövlət müəssisələrində işdən çıxarılan işçilərdən tutmuş bütün işaxtaranlara qədər genişləndirildi. 2009-cu ildə aktiv məşğulluq siyasəti proqramları qlobal maliyyə böhranına cavab olaraq bir daha yeniləndi. 2015-ci ildə təklif yönlü islahatlar və aşağı ÜDM artımı fonunda siyasət yeniləndi və sahibkarlığın inkişafı, eləcə də yeni iş yerlərinin yaradılması özünü göstərdi. Aktiv məşğulluq proqramı ilə bağlı son islahat dəyişiklikləri 2017-ci ilin aprelində aparılmış və islahatlar məşğulluğu dəstəkləyən makroiqtisadi siyasət, sahibkarlıq və innovasiyalar istiqamətində yönəlmişdir. Burada məşğulluq siyasətinin əsas məzmunu, prioritetləri və hədəf qrupları əmək bazarındakı dəyişiklikləri nəzərə alaraq müəyyənləşdirilmişdir [4].

Şəhərlərdə həssas insanlar üçün yardım siyasətlərinə əsasən aşağıdakılar daxildir:

- İşsizlərin özünüməşğulluğu həyata keçirməyə və ya biznesini qurmağa həvəsləndirilməsi
- Müəssisələri işçiləri qəbul etməyə təşviq etmək
- İşdən çıxarılan 50 yaşdan yuxarı kişilər və 40 yaşdan yuxarı yeni iş tapmaqda çətinlik çəkən, lakin əmək qabiliyyəti olan və işə düzəlmək arzusunda olan qadınların məşğulluğuna köməklik göstərilməsi
- Hökumət tərəfindən sosial həssas insanlara iş tapmağa köməklik edilməsi
- Sosial həssas təbəqə nümayəndələrinin, eləcə də 50 yaşdan yuxarı kişilər və 40 yaşdan yuxarı qadınlara yenidən işə düzəldikdə müəyyən sosial sığorta subsidiyalarının və post subsidiyaların təklif edilməsi

**Cədvəl 1.** Çində məşğulluq siyasəti çərçivəsində həyata keçirilən islahatlar

<table>
<tr><th>Siyasət prioriteti və müddəti</th><th>Dövlət müəssisələrində islahatlar (2002-2007)</th><th>Gənclərin məşğulluğu (2008)</th><th>Maliyyə böhranına reaksiya (2009)</th><th>Sahibkarlığın inkişafı (2015)</th><th>Kompleks məşğulluq siyasəti (2017)</th></tr>
<tr><td>İş yerlərinin yaradılması üçün iqtisadi siyasət</td><td>Əmək tutumlu, ənənəvi xidmətlər</td><td>Xidmət sənayesi, yeni sənayelər</td><td>4 trilyon RMB investisiya</td><td>Məşğulluğa makroiqtisadi və investisiya siyasətinin təsirinin qiymətləndirilməsi; ÜDM-in məşğulluqla əlaqələndirilməsi.</td><td>Məşğulluğu dəstəkləyən makroiqtisadi və sektoral siyasətlərə</td></tr>
<tr><td>Sahibkarlıq</td><td colspan="3">Vergi güzəştləri və güzəştləri; mikro kredit; maliyyə dəstəyi</td><td rowspan="4">100 000 RMB mikro kredit; minimuma endirilmiş inzibati müdaxilələr; təkmilləşdirilmiş sahibkarlıq zonası; vergi güzəştləri və azadolmaları.</td><td rowspan="3">Siyasətlər məşğulluğun yeni formalarına, KOS-lara dəstək və yoxsulluğun azaldılmasına şamil edilmişdir.</td></tr>
<tr><td>İşə qəbul</td><td colspan="3">Vergi endirimləri; sosial təminat subsidiyaları</td></tr>
<tr><td>Dezavantajlı qruplar</td><td colspan="2">Vergi endirimləri; sosial təminat və əmək haqqı subsidiyaları</td><td rowspan="2">Təxirə salınmış sığorta ödənişləri; aşağı sığorta tarifləri; əmək haqqı subsidiyaları</td></tr>
<tr><td>İşin davamlılığı</td><td>-</td><td>-</td><td>Dəmir, polad və kömür sənayesini hədəf aldı.</td></tr>
<tr><td>Dövlət məşğulluq xidmətləri</td><td colspan="4">İş zəmanəti; məqsədyönlü fəaliyyətlər</td><td></td></tr>
<tr><td>Bacarıqlar</td><td colspan="2">Təlim haqqı; texniki işçilər üçün bacarıq təlimi və biznesə başlamaq üçün təlim.</td><td>Xüsusi Təlim Sxemi.</td><td>Biznesin inkişafı üçün təhsil və təlim</td><td>Yeni bacarıq strategiyası; tələbələr və texniki işçilər üçün subsidiya siyasəti.</td></tr>
<tr><td>İşsizliyin qarşısının alınması</td><td colspan="5">İşsizliyin proqnozlaşdırılması və əvvəlcədən xəbərdarlıq sistemi.</td></tr>
<tr><td>Sosial təminat</td><td colspan="5">Sosial təminat əhatəsinin genişləndirilməsi; məşğulluq üçün əlverişli sosial təminat siyasəti.</td></tr>
</table>

1999-cu ildə Çin hökuməti bütün sosial sektorları işsizlərin işlə təmin olunmaq, öz bizneslərini qurmaq üçün həm məktəb diplomlarına, həm də peşə ixtisas sertifikatlarına diqqət yetirmək sistemini qəbul etməyə çağırıb. 2000-ci ildə ilkin olaraq Məşğulluğa İcazə Sisteminin çərçivəsi yaradılmışdır. Hazırda Çin ibtidai, orta və yüksək ixtisaslı işçilərdən tutmuş texniklərə qədər beş səviyyəli peşə ixtisas hazırlığı sistemi qurmuşdur. 2002-ci ildən etibarən dövlət "Məşğulluğun artırılması üçün peşə hazırlığının gücləndirilməsi planı" və "Yüksək ixtisaslı kadrların hazırlanması üzrə Milli Layihə"ni həyata keçirməklə genişmiqyaslı ixtisasartırma

tədbirlərini həyata keçirməyə başlamışdır. Bütün bunlar, bütövlükdə işçi qüvvəsinin məşğulluq ixtisaslarını, iş səriştəsini və iş qabiliyyətini təkmilləşdirmək üçün çoxlu sayda ixtisaslı işçilər yetişdirməyə yönəldilmişdir. Yuxarıda qeyd olunan islahatlarla müsbət nəticələr əldə edilmişdir. Amma Çin hökumətinə də məlumdur ki, çoxlu əhalisi olan bir ölkədə məşğulluq probleminin həlli vaxt aparmalıdır. [6, s.10].

## 2. Çinin məşğulluq siyasətinin nəticələri və məşğulluğun inkişafı dinamikası

Çində məşğulluq vəziyyətinin yaxşılaşması 1990-2011-ci illər arasında olmuşdur. 11 dekabr 2001-ci ildə Çin rəsmi olaraq ÜTT-nin 143-cü üzvü oldu. Çinin ÜTT-yə daxil olması dərin dəyişikliklərə səbəb oldu. Ümumi ixrac 2001-ci ildəki 266 milyard ABŞ dollarından 2013-cü ildə 2,2 trilyon dollara yüksəldi. Yerli istehsal sektoru inkişaf etdi və işçi qüvvəsinə tələbat artdı ki, bu da həm kənd miqrantları, həm də şəhərlərdəki əmək qabiliyyətli əhali üçün üçün məşğulluq imkanları yaratdı [3].

1990-cı ildə Çində müntəzəm məşğulluq təxminən 265 milyon, qeyri-müntəzəm məşğulluq isə 383 milyona yaxın idi. İyirmi il ərzində Çində müntəzəm məşğulluq təqribən 480 milyona yüksəldi və qeyri-müntəzəm məşğulluq 2011-ci ildə 285 milyona düşdü. Müntəzəm məşğulluğun payının 1990-cı ildəki 40,1 faizdən 2011-ci ildə 62,7 faizə artması dünyanın ən çox əhalisi olan ölkəsində heyrətləndiricidir. Bu, təxminən 132 milyon nəfərdir. Bu, Çindəki böyük məşğulluq transformasiyasının miqyasıdır [5].

2012-ci ildə Çin təxminən iki trilyon ABŞ dolları ixrac dəyəri ilə dünyanın ən böyük ixracatçı ölkəsi oldu. Çinin iqtisadi sistemi əsasən artım və ixraca əsaslanır və istehsal sektoru ölkənin ixrac rəqabət qabiliyyətinə mühüm töhfə verir. İqtisadi inkişaf əmək xərclərinin davamlı artması, eləcə də işçi qüvvəsinin artımında əhəmiyyətli yavaşlama ilə müşayiət olundu. Bu dəyişikliklər Çinin dünya fabriki kimi dövrü üçün ciddi təhlükə yaradır.

Çinin iqtisadi islahatların ilk illərində kənd təsərrüfatın məhsulları istehsalına daha çox önəm verilirdi. İqtisadi artım strategiyalarının həyata keçirilməsindən sonra 1990-2000-ci illərdə sənaye istehsalı və əməyinə daha çox əhəmiyyət verildi. Çin iqtisadiyyatının daha çox xidmət yönümlü sənayenin inkişafına meyilli davam edən dəyişimi nəticəsində xidmət sektorunda məşğulluq son illər ərzində əhəmiyyətli dərəcədə genişləndi və 2019-cu ildə Çində işçi qüvvəsinin 47%-dən daha çoxunu xidmət sektorunda çalışanlar təşkil etdi. Bu əsaslı dəyişiklik şəhərlərdə və şəhər tipli ərazilərdə daha yüksək maaşlı iş yerlərinin yaradılmasına , bu da öz növbəsində Çinin şəhər bölgələrində işə ehtiyacı olan miqrant işçilərin kütləvi axınına səbəb olmuşdur. Çin hökumətinin açıqladığı statistik göstəricilərə əsasən, miqrant işçi sayı 2020-ci ildə 286 milyona çatıb. Miqrant işçilərin qadın işçilərin faiz nisbəti 2019-cu ildə 35% təşkil etmişdir.

Son illərdə ölkədə ixtisaslı kadrlara tələbat artmışır. Çinin şəhər bölgələrində orta illik əmək haqqı 2019-cu ilin sonunda əvvəlki dövrün eyni göstəricisi ilə müqayisədə xeyli yüksəlmişdir. Bununla yanaşı, müxtəlif bölgələr arasında əmək haqqı fərqləri hələ də böyük nisbətdə qalmaqda idi. 2019-cu ildə Pekində orta illik əmək haqqı göstəricisi təxminən 166800

yuana olduğu halda, Henan ərazisində bu göstərici müvafiq dövr üçün cəmi 67300 yuan təşkil etmişdir. Dünyanın əksər ölkələri kimi, Çində də qadınların məşğulluğu kişilərin məşğulluğundan geri qalır, ancaq Çində gender fərqi bir çox digər ölkələrlə müqayisədə daha az önəm kəsb edir. 2019-cu  60,4 faiz təşkil etmişdir ki, bu da dünya üzrə orta göstəricidən təxminən 13 faiz yüksək olmuşdur. [8].

Çində işsizlik dünya miqyasında digər ölkələrlə müqayisədə xeyli aşağıdır. Rəsmi Çin rəqəmlərinə görə, koronavirus pandemiyası səbəbiylə qeydə alınmış işsizlik 2020-ci ildə 4,2 faizə qədər artım göstərmişdir. Şəhər əhalisinin işsizliyi 2020-ci ilin fevral ayında 6,2 faizə qədər artmış, lakin 2020-ci ilin sonunda pandemiya və iqtisadi çətinlik dövründən əvvəlki səviyyələrə qədər aşağı düşmüşdür.




**Qrafik 1.** Çində əhalinin məşğulluq göstəriciləri (faizlə)
Məlumatlar Dünya Bankının https://data.worldbank.org/ məlumat bazasından götürülmüşdür.

Qrafık 1-də əks olunan göstəricilərinə əsasən 2020-ci ildə Çində məşğulluq səviyyəsi əvvəlki ildəki göstəricilərə nisbətən aşağı olmuş, təxminən 64 faiz təşkil etmişdir. Çin xalqı üçün ümumi iqtisadi vəziyyət və məşğulluq, iş imkanları yaxşılaşsa da, Çində əmək qabiliyyətli əhalinin faktiki sayı hər il davamlı azalmaqdadır. Bu, əsasən ölkədə doğum səviyyəsinin aşağı həddi ilə bağlıdır [8].

Qrafik 2-də verilmiş statistika 2010-cu ildən 2020-ci ilə qədər Çində işçi qüvvəsinin iqtisadi sektorlar üzrə bölgüsünü göstərir. 2020-ci ildə işçi qüvvəsinin təxminən 23,6 faizi kənd təsərrüfatı sektorunda, 28,7 faizi sənaye sektorunda və 47,7 faizi xidmət sektorunda məşğul olub [8].




**Qrafik 2.** Çində əhalinin sektorlar üzrə məşğulluq göstəriciləri (faizlə)
Məlumatlar https://www.statista.com/ statistik məlumat bazasından götürülmüşdür.

2011-ci ildən bəri Çinin işçi qüvvəsinin əksəriyyəti xidmət sektorunda çalışır. Bununla belə, 2020-ci ildə işçi qüvvəsinin müvafiq olaraq 72,6 və 79 faizinin xidmət sahələrində aktiv olduğu Yaponiya və ya ABŞ kimi inkişaf etmiş ölkələrlə müqayisədə Çində ali təhsil sektorunda çalışan insanların nisbəti nisbətən aşağı olmuşdur. Çin hökuməti digər tədbirlərlə yanaşı, iqtisadi islahatları davam etdirməyi hədəfləyir. Bu, xidmət sektorunun daha güclü inkişafına səbəb ola bilər. [7].

**Nəticə.** Çində son 20 il ərzində məşğulluq siyasəti aparılır və bu siyasət əmək qabiliyyətli əhalinin müxtəlif təbəqələrini əhatə edir. Ölkə işsizlik mövzusunda struktur problemlərin həllinə əhəmiyyət verilir. "Ən yaxşı idarəetmə forması yoxdur, ən uyğun idarəetmə forması var" ifadəsi Çində ən çox eşidilən ifadələrdən biridir. Bu yanaşma alternativ düşüncəyə, davamlı araşdırmaya və hökumət idarəçiliyində və problemlərin həllində dəyişiklik etməyə təşviq edir. Hökumət insan resurslarının sektorlar arasında balanslı bölüşdürülməsinə böyük əhəmiyyət verir. Ölkə üzrə işçilərin 33,6 faizi kənd təsərrüfatında, 30,3 faizi sənayedə, 36,1 faizi isə xidmət sektorunda çalışır.

Məşğulluq siyasəti ilk növbədə gənclərə yönəlmişdir və öz biznesini qurmaqla məşğul olanlara xüsusi dəstək verilir. Məşğulluq təhsili universitet təhsili zamanı və məzun olduqdan sonra həyata keçirilir. Çin hökuməti məşğulluqla bağlı aşağıdakı əsas prinsipləri qəbul etmişdir:

- Müxtəlif səviyyələrdə yerli hökumətlər insanların məşğulluğuna üstünlük verəcək,
- Məşğulluq sahəsində islahatlar sürətləndiriləcək,
- Cəmiyyətdə məşğulluq bərabərliyinə mane olan məsələlər aradan qaldırılacaq,

- Universitet məzunları müvafiq işlərə yerləşdiriləcək; məzunlara yüksək texnologiya və bilik tələb edən işlərdə və sektorlarda daha çox imkanlar veriləcək,
- Hökumət işsiz qalanların yenidən işlə təmin olunması üçün hər cür səy göstərəcək,
- Öz biznesini qurmaq istəyənlərə maddi yardım göstəriləcək,
- Məşğulluğun artırılması məqsədilə sahibkarlıq subyektlərinə aşağı faizli kreditlər veriləcək; vergi güzəşti tətbiq olunacaq;
- Peşə təhsilinə önəm veriləcək.

**Ədəbiyyat**

1. Böyük İqtisadi Ensiklopediya: [7 cilddə] / Z.Ə.Səmədzadə. – Bakı: Şərq-Qərb, c. 1, 2012. – 612 s.
2. Səmədzadə, Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında, Bakı: Elm və Təhsil, 2009, 608 s.
3. Şimşek M. Çin Halk Cumhuriyetinin Dünya Ticaret Örgütüne(WTO) Üyeliinin Ekonomik Etkileri ve Çinin Geleceine İlişkin Senaryolar. Manisa: Yönetim ve Ekonomi, 2005. Cild 12, № 2, s.77-90.
4. Employment policy implementation mechanisms in China. International Labour Organization, 2017, 12 s.
5. Majid N., The Great Employment Transformation in China, Employment Policy Department Employment, 2015. Working Paper No. 195.
6. Yan D.I. China’s Employment Policies and Strategies. Chinese Academy of Labour and Social Security, Ministry of Labour and Social Security, P.R.China.
7. World Bank Open Data https://data.worldbank.org/ (1.03.2022)
8. https://www.statista.com/ (2.03.2022)